# Görüş-qəbullar sakinlər tərəfindən rəğbətlə qarşılanır

## Görüşlər problemlərin həllini sürətləndirir

***RİH-nin başçısı Səbuhi Abdullayevin yaşayış məntəqələrində keçirilən görüş-qəbulları sakinlər tərəfindən rəğbətlə qarşılanır. Bu tədbirlərin əsas məqsədi Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən irimiqyaslı quruculuq işlərinin, sosia-liqtisadi inkişafın bütün sahələri üzrə əldə olunan nailiyyətlərin, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasına yönəldilən tədbirlərin təbliğ edilməsi, eləcə də bu istiqamətdə Qəbələ rayonunda icra edilən sosial layihələr və görülən işlər barədə əhaliyə geniş məlumatların verilməsi, vətəndaşların müraciətlərinin dinlənilməsi, onların irəli sürdükləri təkliflərin həll olunmasıdır.***



Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin Solquca kəndində sakinlərlə görüş-qəbulu keçirilib.

Görüş qəbulda rayon icra hakimiyyətinin məsul işçiləri, hüquq-mühafizə orqanlarının, təhsil, səhiyyə və digər xidmət təşkilatlarının rəhbərləri, kənd ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Görüşdə RİH-nin başçısı Prezdent İlham Əliyevin rəhbərliyi altında ölkədə gedən quruculuq-abadlıq işlərindən, iqtisadi və sosial sahədə əldə olunan uğurlardan danışıb. Vurğulanıb ki, ölkədə gedən geniş quruculuq işlərini Qəbələnin, o cümlədən Solquca kəndinin timsalında görmək mümkündür.

Tədbirdə son illər kənddə inzibati ərazi nümayəndəliyinin yaradıldığı, nümayəndəlik üçün yeni inzibati binanın tikildiyi, kənddəki ibtidai məktəbin ümumi orta məktəbə çevrildiyi və bu təhsil müəssisəsi üçün müasir standartlara cavab verən məktəb binası inşa edildiyi səslənib.

RİH başçısı qeyd edib ki, yaxın aylarda elektrik təsərrüfatında əsaslı təmir işlərinə də başlanacaq. Növbəti ildə isə yaşayış məntəqəsinin sel sularından mühafizəsi məqsədi ilə Qaraçayın sağ sahilində sahilbərkimə tədbirləri həyata keçiriləcək.

Solquca kəndinə qaz xəttinin çəkilməsi üçün aidiyyəti təşkilatlar qarşısında məsələ qaldırılacağını deyən rayon rəhbəri, kənd sakinlərinə meşələrin ciddi mühafizə olunması ilə bağlı konkret tösiyələr verib.

Sonra görüş-qəbulda iştirak edən kənd sakinləri dinlənilib.



Tədbirdə çıxış edən ictimaiyyət nümayəndələrindən Azad Mirzəliyev, Namiq Mikayılov, İslam Eyvazov, Sevil İsayeva, Ramin Mirzəliyev, İkram Babayev, Ağalar Mirzəliyev və başqaları son illər rayonda və kəndlərdə görülmüş quruculuq işlərinə və kənd təsərrüfatı məhsulları istehsalçılarına göstərilən qayğıya görə ölkə başçısına minnətdarlıqlarını ifadə ediblər.

Vətəndaşlar Solquca-Mıxlıqovaq yolunda körpünün tikilməsi, kənddəki feldşer məntəqəsi üçün yeni binanın inşa olunması ilə bağlı təkliflər veriblər.

Daha sonra bir qrup sakinlərin fərdi xarakterli müraciətləri dinlənilib

Görüş-qəbulda səslənən müraciətlərin bir qismi yerindəcə həll edilib. Digər təkliflərin qanunamüvafiq qaydada icra olunması üçün RİH başçısı tərəfindən aidiyyəti vəzifəli şəxslərə müvafiq tapşırıqlar verilib.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**

# Peşə bayramlarını qeyd ediblər

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 9 oktyabr 2008-ci il tarixli Fərmanı ilə noyabrın 1-i ölkəmizdə Kənd Təsərrüfatı İşçiləri Günü kimi qeyd olunur.***



Hər il olduğu kimi bu ildə rayonumuzun kənd təsərrüfatı işçiləri peşə bayramlarını əldə olunmuş uğurlar fonunda təntənə ilə qeyd ediblər.

Noyabrın 1-də rayon icra hakimiyyəti başçısının müavini Arif Allahverdiyev, rayon dövlət aqrar inkişaf mərkəzinin kollektivi, fermerlərin, digər kənd təsərrüfatı subyektlərinin nümayəndələri ulu öndər Heydər Əliyevin Qəbələ şəhərinin mərkəzində ucaldılan abidəsi önünə gəlmiş, gül-çiçək dəstələri düzərək dahi rəhbərin xatirəsinə ehtiramlarını bildirmişlər.

Aqrar inkişaf mərkəzində davam edən tədbirdə idarənin rəisi Rahib Əhmədov iştirakçıları peşə bayramları münasibətilə təbrik etmiş, son illər Qəbələ rayonunda kənd təsərrüfatı sahəsində əldə olunan nailiyyətərdən danışmışdır. Qeyd etmişdir ki, bu ilin 9 ayında kənd təsərrüfatı işçiləri sahələrdən 65 min tondan çox taxıl, 4692,8 ton kartof 3838 ton tərəvəz, 29 ton bostan bitkiləri əldə etmişlər. Bu rəqəmlər əvvəlki ildəkindən xeyli çoxdur.

Rayon icra hakimiyyəti başçısının müavini Arif Allahverdiyev tədbir iştirakçılarını peşə bayramları münasibətilə təbrik etmiş, ölkə Prezidenti İlham Əliyev tərəfindən qeyri-neft sektoru sahəsinə, o cümlədən kənd təsərrüfatına göstərilən diqqət və qayğıdan danışmışdır.

**İlkin Vəlizadə (foto).**

# Məktəblilərlə görüş

***Qəbələ şəhər 5 saylı tam orta məktəbdəQəbələ Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə "Narkomaniyaya yox deyək", "Erkən nikah və onun fəsadları" və "Dini radikalizmə qarşı mübarizə" mövzularında məktəblilərlə görüş keçirilib.***



Tədbirdə çıxış edən rayon polis şöbəsinin rəisi, polis polkovniki Nadir Məmmədov bildirib ki, gənclər gündəlik həyatlarında təhsili, səmərəli fəaliyyəti və sağlam həyat tərzini özlərinə mayak seçməlidirlər. Bəşəriyyət üçün ən böyük bəlalardan olan narkomaniyanın fəsadlarına qarşı mübarizə bu gün də aktual xarakter daşıyır. Daxili işlər orqanları narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı qətiyyətli tədbir görürlər.

Nadir Məmmədov həmçinin dini radikalizm və ekstremizm, onların törətdiyi sosial bəlalar, habelə bunlara qarşı mübarizə istiqamətində görülən tədbirlər barədə məlumat verib, ölkəmizdə dövlət-din münasibətləri, tolerant və multikultural mühitdən danışıb.

Tədbirdə erkən nikah məsələsinə də toxunulub. Çıxış edənlər erkən nikahların boşanma hallarının artmasına, qızların təhsil imkanlarının məhdudlaşmasına səbəb olduğunu bildiriblər.

Sonda şagirdləri maraqlandıran suallar cavablandırılıb.

Görüşdə polis veteranları, rayon polis şöbəsinin əməkdaşları, təhsil işçiləri, məktəbin müəllimləri və yuxarı sinif şagirdləri iştirak ediblər.

**"Qəbələ"**

# Bu il üzüm bağlarından 3684 ton məhsul yığılıb

Qəbələ rayonunun təsərrüfatlarında üzüm yığımı başa çatıb. Torpaq mülkiyyətçiləri builki mövsümdə üzüm bağlarından 3 min 684 ton məhsul tədarük ediblər. Üzüm istehsalı ötən illə müqayisədə 100 tonadək artıb.

Bu barədə müxbirimizə Qəbələ Dövlət Aqrar İnkişaf Mərkəzinin bitkiçilik sektorunun müdiri Elimdar Şərifov məlumat verib.

Sektor müdiri bildirib ki, son illər rayonda üzümçülüyün inkişaf etdirilməsi istiqamətində fiziki və hüquqi şəxslər tərəfindən davamlı işlər görülür. Son üç ildə fermerlər tərəfindən rayon ərazisində 17 hektar sahədə yeni üzüm bağları salınıb. Hazırda Qəbələ rayonunda 421 hektar barverən üzüm bağı var.

**"Qəbələ"**

# Xatirəsi yad edilmişdir

Qəbələ şəhər 1 nömrəli tam orta məktəbində vaxtilə uzun illər bu təhsil ocağında müəllim işləmiş, respublikada tanınmış pedaqoq Məhəmməd Qəribovun anadan olmasının 120 illiyi ilə əlaqədar tədbir keçirilmişdir. Tədbiri məktəbin direktoru Məhəbbət Rüstəmova açmışdır. Uzun illər bu məktəbdə işləmiş təqaüdçü müəllim Simuzər Mustafayeva Məhəmməd Qəribovun həyat yolundan bəhs etmiş, onunla əlaqədar xatirələrini danışmışdır.

Məktəb şagirdləri müəllimlərə həsr olunmuş şeirlər söyləmişlər.

Tədbirdə rayon təhsil şöbəsinin əməkdaşları Yaşar Nəzirov və Əhməd Mirzəliyev iştirak ediblər.

**Nurdanə ZEYNALOVA,**
**məktəbin müəllimi.**